

## MÜXƏMMƏD HAQVERDİ

**"Muğan-Şirvan" qəzetinin redaktoru, Avropa Nəşr Mətbuat evinin "Ən yaxşı vətənpərvər şair, vəqabaqcıl təhsil işçisi" qızıl medalı ilə təltif olunmuşdur.**

### *MÜƏLLİM ÖMRÜ*

Elmi bilgiləri dürüst söyləyər,
Yorulmaz dühadır, müəllim ömrü,
İşıqlı yollara bizi səsləyər,
Nur saçan ziyadır müəllim ömrü.

Qoruyar şərəfin, ləkəsiz adın,
Qayğılı, mənalı yaşar həyatın.
Sözünün sehriylə yayar savadın,
Sahilsiz dəryadır müəllim ömrü.

Narahat həyatın xalqa sərf edər,
Son zəngi, ayrılıq günün dərd edər,
Sanmayın qocalıb bizi tərk edər.
Əbədi dünyadır müəllim ömrü.

### *BURAX DƏRDLƏ QOŞA MƏNİ*

Anlayanın dərdi dərin,
Dərd gələnin, dərd gedənin.
Yaş artdıqca, dərd çoxalır,
Nə vecinə tez ölənin.

Adəmdən qalan qaydadı,
Hər ömür barmaq boydadı.
Ömür sürmək növbənövdü,
Mərəkə ondan sonradı.

Yaxşı ki, yolu azmadım,
Şeytana qulaq asmadım,
Əlimə qələm alandan
Ya düz yazdım, ya yazmadım!

Nə təriflə, oxşa məni,
Nə tənqid et, daşla məni.
Dostum, yarama toxunma,
Burax dərdlə qoşa məni...

### *XƏBƏRSİZƏM...*

Səni xatırlayıram,
Ömrün qürub taxtında.
Bilmirəm ki, hardasan,
Bu köçkünlük vaxtında.

Baş tutmadı ilk sevgi,
Ayrıldıq biz, bax o gün.
Ürək dolu sevgiyə,
Nöqtə qoymadı düyün.

İstəklim, sorağında,
Dilbədil ötdüm, nə qəm,
Məni axtarmısanmı?
Bir ondan xəbərsizəm!...

### *COCUQ MƏRCANLIYA*

Araza baxan kəndim,
Arxada "Lələ" təpə.
Camaatı didərgin.
Ordunun əsgərləri
Sığınaraq hünərə
Qoruduğu bir təpə
"Lələ"nin "ovcundakı"
Təzə yurd dikələn yer,
Ondan yoxdur iz, əsər,
Talayıb ermənilər,
Şəhid qəbirlərini,
Sökübdü ermənilər.
ƏhrimənDən doğulmuş,
O əclaflar, dənilər.

## BİR NƏFƏRƏ

"Xəstə" oğlu "xəstə"
Mindirmişdi çiynınə
filankəsi.
Salmırdı yerə,
Sala bilmirdi yerə
O fitnə kəsi...
Tanıyırdım,
Allahın bacısı oğlu
deyildi,
Məmur filankəsin
filankəsiydi...

## ARZU

***(Əjdaha ilində yazılmışdır)***

Nə ola
yaşadığım cəmiyyət,
Qazana təzə məziyyət:
Nə rüşvət ola,
Nə rüşvətxor
İnsanın insana
insanı qayğısı
yaşıllana,
çiçəklənə.
Məmurlar
həssaslaşa
yurddaşlarına:
Ədası sına,
hədəsi həlimləşə.
Əjdaha ili
olsa da...

## BAYATI

Mən aşiq, Lələ təpəm,
Dustaqdın Lələ təpəm,
Aprel döyüşlərindən,
Azadsan, Lələ təpəm!

Əzizim, dərdə məni,
Atmısan dərdə məni.
İnsafın olsun bir az,
Dərdimdən dər də məni.

## XƏZƏRİN SAHİLİNDƏ

İlk dəfə
Qələbə şənliyində
Səni gördüm.
gülümsədin,
O gün sənin
təbəssümün,
gözlərimdən, ürəyimdən
asıldı.
Üzdü gözlərimin
dərinliyinə,
uzandı sərinliyinə,
Dostlaşdı,
Doğmalaşdı...
işıq oldu,
təbəssümün
içimə möcüzə doldu...

## DÖRDLÜKLƏR

Xarici dillərə marağın böyük,
Nə olar, bəd deyil marağın sənin.
Ancaq öz dilini sevmək, qorumaq,
Birinci olmalı məramın sənin.
***
Küçələr boyunca xarici adlar,
Dilimin qeyrəti niyə qorunmur?
Milli adlarımız arxivə düşür,
Susur ziyalılar, irad görünmür.
***
Planet tapıblar, insanı yoxdur,
İnsanlar tapılıb, ünvanı yoxdur,
Kainat sonsuzdur, isbat edilib,
Məchulluqda qalan sirləri çoxdur.
***
Torpaq sürüşməsi təzə fəlakət,
Göydə ozon qatı deşilir yaman,
Daha nə dəhşətlər gözləyir bizi...
Dözərmi kürəmiz buna, ay aman?!
***
Fəlakətlər çoxalır,
Təbiət zülüm çəkir.
Canlıları qırılır,
Həyatı ölüm çəkir.
***
Aldanırıq bilə-bilə,
İnanırıq hər yad dilə.
Niyə belə yaranmışıq
Rəbbim, bizə imdad elə.
***
Vurulmuşam xalına,
Al dodaqda balına.
Qurban dedim Allaha.
Qarabağım alına.